Peşə təhsili və insan kapitalı. Cild 5, №4, 2022, s.74-82

# İDMAN SAHƏSİNDƏ NARKOTİK VASİTƏLƏRDƏN İSTİFADƏ İLƏ MÜBARİZƏDƏ AZƏRBAYCAN MİLLİ ANTİDOPİNQ AGENTLİYİNİN ROLU



**Şəfəq Hüseynli,**
*Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru, "SBS Swiss Business School"un biznesin idarə edilməsi üzrə doktorantı*
*e-mail: shafag.huseynli@amada.az*

**Rüfət Efendiyev,**
*Azərbaycan Milli Antidopinq Agentliyinin Elm şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: rufat.efendiyev@amada.az*



**UOT:** 796.011.5; 178.8; 343.575; 613.83; 339.194

**Xülasə**. *Məqalə Azərbaycanda idman sahəsində narkotik vasitələrin istifadəsi ilə mübarizədə Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) rolu və fəaliyyətinin öyrənilməsinə həsr olunub. Müəlliflər bu problemlə mübarizədə AMADA-nın əsas fəaliyyət istiqamətlərini açıqlayaraq, profilaktik tədbirlərin daha təsirli olduğunu qeyd edirlər. Narkomaniyaya qarşı mübarizədə effektiv profilaktik tədbirlərdən biri idmandır. Məhz fiziki aktiv həyat tərzi sağlamlığa əhəmiyyətli dərəcədə fayda verə bilər. Ona görə də cəmiyyətdə dayanıqlı bir fikir formalaşdırmaq lazımdır ki, qadağan olunmuş maddələr və narkotiklərsiz təmiz idman aktual, nüfuzlu və maraqlıdır.*

***Açar sözlər:*** *AMADA, idman, idmançılar, qadağan edilmiş maddələr, narkomaniya, narkotik, narkotik ticarəti, mübarizə.*
***Key words:*** *ANADA, sports, athletes, prohibited substances, drug addiction, drugs, drug trafficking, fight.*
***Ключевые слова:*** *АНАДА, спорт, спортсмены, запрещенные препараты, наркомания, наркотики, наркоторговля, борьба.*

Narkomaniya – narkotik tərkibli maddələrdən istifadə və onun dövriyyəsi, bəşəriyyətin varlığını və gələcəyini təhdid edən ən təhlükəli qlobal problemlərdən biridir. Narkotiklərdən istifadə son onilliklərdə daha çox qlobal miqyas alıb və cəmiyyətdəki sosial-psixoloji mühitə, iqtisadiyyata, siyasətə və qanunun aliliyinə mənfi təsir göstərir. Problemin miqyasının böyüməsi mübarizə tədbirlərinin də daha geniş və kompleks olmasını tələb edir. Məlumdur ki, idman narkotikdən və digər pis vərdişlərdən uzaq olmaq üçün ən effektli vasitələrdən biri kimi qəbul olunur. Lakin çox təəssüf ki, narkomaniya idmana da nüfuz edib. Bu gün dünyada peşəkar idmançılar, hətta elit atletlər arasında da narkotik vasitələrdən istifadə hallarına rast gəlirik. Təsadüfi deyildir ki, narkotik vasitələr Ümumdünya Antidopinq Agentliyi (WADA) tərəfindən qadağan edilmiş maddələr Siyahısına daxil edilib. Ümumdünya Antidopinq Agentliyi qadağan edilmiş maddə və üsulların siyahısını hər il yeniləyir. Siyahı hər zaman qadağan edilmiş maddələr və üsullar, yarışma müddətində qadağan edilmiş maddələr və üsullar, eləcə də müəyyən idman növlərində qadağan edilmiş maddələr üzrə bölünüb. Bu si-

yahının bir hissəsi narkotik vasitələrdən ibarətdir. Təəssüf ki, sağlamlığa vurulan ciddi zərərə baxmayaraq, peşəkar idmanda narkotik vasitələrdən nəticələri yaxşılaşdırmaq, ağrı sindromlarını aradan qaldırmaq və mental problemlərdən azad olunmaq üçün istifadə edilir. Sırf narkotik maddələrdən istifadə etdiyinə görə dünyada sanksiyaya məruz qalan, idmandan uzaqlaşdırılan idmançılar da var. Çox təəssüf ki, bu problem Azərbaycanda da aktualdır. 2017-2021-ci illərin statistik rəqəmlərindən göründüyü kimi, AMADA tərəfindən 7 belə hal aşkar edilib. Bu, dopinq testi nümunələri əsasında aşkarlanmış antidopinq qayda pozuntularının təxminən 11 faizini təşkil edir.

Narkomaniya ilə mübarizənin müxtəlif yolları və istiqamətləri var: ***qarşısının alınması və profilaktikası; müalicəvi narkoloji mərkəzlərin yaradılması; narkomaniyanın qarşısının alınmasına yönəldilmiş ictimai kampaniyaların təşkili*** və s. İnanırıq ki, aktiv profilaktika bütün mümkün mübarizə üsulları içərisində ən təsirli vasitədir. Birləşmiş Millətlər Təşkilatının Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsinin (UNODC) hesabatı onu təsdiq edir ki, idmanla məşğuliyyət narkotik vasitələrdən uzaq olmağın ən effektli üsullarındandır [1]. İdman ölkəsi kimi, Azərbaycan dopinqlə mübarizədə və ədalətli oyunun təşviqində maraqlıdır. Ölkəmiz 2004-cü ildə Avropa Şurasının Antidopinq Konvensiyasını, eləcə də 2007-ci ildə İdmanda Dopinqlə Mübarizə haqqında UNESCO-nun Beynəlxalq Konvensiyasını imzalamaqla bunu nümayiş etdirib. Müstəqil, şəffaf və əhatəli milli antidopinq təşkilatının yaradılması təmiz idmana göstərilən mühüm dövlət dəstəyinin təzahürüdür. Azərbaycanda dopinqdən azad idman üzrə vahid monitorinq sistemi yaradılıb. Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və 2016-cı ilin dekabr ayında Azərbaycan Respublikası Prezidentinin Fərmanı [2] ilə yaradılmış, Azərbaycanda idmanda dopinqə qarşı mübarizəyə cavabdeh olan müstəqil qurumdur. Dövlətin davamlı dəstəyi ilə AMADA öz əməkdaşlarının ixtisasını artırır, elmi-tədqiqat və təhsil potensialını təkmilləşdirir, innovativ metodlara investisiyalar qoyur və bununla da dopinq və qayda pozuntularına qarşı qətiyyətli preventiv, qabaqlayıcı və aşkarlayıcı tədbirlər görür. Qlobal qeyri-qanuni fəaliyyətin və idmanda dopinq fırıldaqlarının artan miqyasını nəzərə alan Azərbaycan təmiz idmanın qorunmasını vacib və aktual məsələ hesab edir. Xüsusi qanunvericilik və antidopinq təşkilatının müstəqilliyi şəraitində fəaliyyət göstərən Azərbaycan Milli Antidopinq Agentliyi həm milli, həm də beynəlxalq səviyyədə Azərbaycan idmanının ədalətliliyi, təmizliyi uğrunda, həmçinin dopinqlə mübarizə aparmaq üçün müvafiq səlahiyyətlərə malikdir və bunu qarşısına əsas məqsəd kimi qoyur.

Bu gün dünyada narkomaniya problemi çox kəskin və aktual olaraq qalır. Birləşmiş Millətlər Təşkilatının Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsinin 2022-ci il hesabatına əsasən, 2020-ci ildə dünyada 15-64 yaş arasında olan təxminən 284 milyon insan narkotik vasitələrdən istifadə edib [3]. Hesabatda göstərilir ki, 2010-2020-ci illər ərzində bütün dünyada narkotik istifadəsi 26 faiz artmışdır. Dünya əhalisinin sayını nəzərə alsaq, bu o deməkdir ki, 2020-ci ildə 15-64 yaşlı dünya əhalisinin təxminən 5 faizi narkotik vasitələrdən istifadə edib. Hesabatda o da qeyd olunur ki, narkomaniya ilə bağlı xəstəliklərdən əziyyət çəkən və müalicə gözləyənlərin sayında ciddi artım müşahidə olunur. Son 10 ildə onların sayı dünyada 38,6 milyon nəfərə çatıb. Lakin müstəqil hesablamalara görə, real rəqəm daha böyükdür.

Narkomaniya kompleksli çox mürəkkəb problemdir. Əksər tədqiqatçılar psixoaktiv maddələrdən istifadənin ümumi nəticələrinə tibbi, demoqrafik, iqtisadi, siyasi, əxlaqi, etik və digər problemlər kompleksini aid edirlər [4]. Bu xəstəliklə mübarizənin ən təsirli üsullarından biri onun qarşısının alınmasıdır. Çünki hər hansı bir xəstəliyin qarşısını almaq müalicə etməkdən daha yaxşıdır. Bunun üçün narkotik vasitələrin ziyanı və orqanizmə vurduğu bərpaolunmaz zərərlər haqqında biliklərin yayılmasına yönəldilmiş profilaktik tədbirlər həyata keçirilir. Bu kontekstdə Azərbaycan dövləti bütün sahələrdə narkomaniyaya qarşı qətiyyətli mübarizə aparır. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda narkotiklərlə mübarizədə məqsədyönlü və barışmaz bir siyasət həyata keçirilir. Bununla bağlı ölkədə təkmil qanunvericilik

bazası mövcuddur. Mübarizə tədbirlərinin sistematik və davamlı olması üçün dövlət proqramları icra edilir. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" mövcuddur [5]. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) Dövlət Proqramının icraçı orqanlarının siyahısına əlavə edilib. Öz fəaliyyətində antinarkotik maarifləndirməsinə xüsusi diqqət ye-tirən AMADA idman sahəsində narkotiklə mübarizə ilə bağlı müxtəlif layihələr, tədbirlər və görüşlər həyata keçirir. Statistik məlumatlara nəzər salaq:

***Cədvəl 1. 2017-2022-ci illər üzrə "Antidopinq Maarifləndirmə" təbdirlərinin (seminarlar, vebinarlar, təşviqat proqramları) sayının dinamikası***

| İl | Seminarlar | Seminarlarda iştirakçı sayı | Vebinarlar | Vebinarlarda iştirakçı sayı | Təşviqat proqramları | Təşviqat proqramlarında iştirakçı sayı | Tədbirlər | Tədbirlərdə iştirakçı sayı |
|---|---|---|---|---|---|---|---|---|
| **2017** | 8 | 366 | - | - | 8 | 2590 | - | - |
| **2018** | 34 | 1492 | - | - | 3 | 370 | 2 | 700 |
| **2019** | 30 | 910 | - | - | 10 | 1510 | 2 | 250 |
| **2020** | 14 | 88 | 16 | 55 | - | - | 1 | 500 |
| **2021** | 31 | 538 | 20 | 821 | 9 | 1150 | 7 | 245 |
| **2022** | 54 | 2148 | 8 | 320 | 12 | 1580 | 4 | 110 |

***Mənbə: AMADA, 2017-2022***

***Cədvəl 1***-in məlumatlarından göründüyü kimi, AMADA tərəfindən hazırlanan maarifləndirici tədbirlərin sayı ildən-ilə artır. AMADA tərəfindən təkcə 2021-ci il ərzində narkotiklə mübarizəyə həsr olunmuş ümumilikdə 9 vebinar, 25 seminar keçirilmişdir. Əlavə olaraq 8 beynəlxalq və yerli yarışlarda AMADA antinarkotik təbliğatı aparmışdır. Məsələn, Azərbaycanın ev sahibliyi etdiyi aerobika gimnastikası üzrə 9-cu Dünya Yaş Qrupları Yarışı və 27 may 2021-ci il tarixində start götürən 16-cı Dünya Çempionatı üçün AMADA xüsusi antidopinq maarifləndirici təbliğat proqramları həyata keçirib. 18 ölkədən 202 gimnastın qatıldığı Dünya Yaş Qrupları Yarışında, habelə 22 ölkədən 171 idmançının iştirak etdiyi aerobika gimnastikası üzrə Dünya Çempionatında AMADA xüsusi antidopinq guşəsi yaradıb. Təbliğat proqramında idmançılarla təmiz idman dəyərləri, dopinqin, narkotik və psixotrop maddələrin qadağan edilməsi, idmanda ədalət prinsipi və antidopinq nəzarətinin əhəmiyyəti ilə bağlı maarifləndirmə işi aparılıb.

AMADA 30 oktyabr 2021-ci ildə 50-yə yaxın idmançının iştirak etdiyi Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin təşəbbüsü, Azərbaycan Velosiped İdmanı Federasiyası və Respublika Olimpiya Velosiped Məktəbi ilə birgə "İdmançılar dopinqə və narkotikə yox deyir!" adlı tədbir keçirmişdir. Həmçinin 20 dekabr 2021-ci ildə Gənclər və İdman Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi və Dövlət Gömrük Komitəsinin nümayəndələrinin iştirakı ilə AMADA idmanda narkotik vasitələrlə mübarizəyə həsr olunmuş "Parlaq gələcək üçün narkotikə yox deyək!" mövzusunda tədbir keçirib.

Müxtəlif beynəlxalq tədqiqatlar onu göstərir ki, idman cinayətlərin, zorakılığın, qadağan edilmiş maddələr və narkotik vasitələrdən istifadənin qarşısının alınması üçün güclü vasitə ola bilər. Bir qayda olaraq, əksər yeniyetmələr narkotik vasitələrdən başqalarının diqqətini cəlb etmək, onların gözündə cəsarətli, müstəqil, daha yetkin görünmək, öz ünsiyyətcilliyini artırmaq üçün istifadə edirlər. İdman onlara sağlamlıqlarına zərər vermədən, bu məqsədə çatmağa kömək edə bilər.

Təəssüf ki, idman tarixində məşhur idmançıların narkotikdən istifadə halları az deyil [6].

Məşhur argentinalı futbolçu Dieqo Maradona "Barselona" futbol klubunda oynayarkən (1982-1984-cü illərdə) ilk dəfə narkotik maddə qəbul edib. Yalnız 1991-ci ilin fevralında ondan şübhələnməyə başladılar, lakin həmin vaxt o, sadəcə narkotik alveri ilə bağlı polis tərəfindən dindirildi. Bir müddət keçdikdən sonra onun testində kokain tapıldı və bu, 15 aylıq diskvalifikasiyaya səbəb oldu. Diskvalifikasiyadan sonra Maradona milli komandası ilə 1994-cü ildə dünya çempionatına getdi, lakin qrup mərhələsindəki ikinci oyundan sonra onun dopinq testi nəticəsində beş maddənin olduğu aşkarlandı: efedrin, norefedrin, psevdoefedrin, norpsevdoefedrin və metilefedrin. Cəza kimi ona 15 ay müddətinə diskvalifikasiya verildi.

Ağır çəkidə boks üzrə keçmiş dünya çempionu Mayk Tayson narkotik asılılığından üç dəfə problem yaşamışdır. 1987 və 1991-ci illərdə o, ödənişli dayanacaq işçisinə hücum etmək faktına görə təqsirli bilinərək üç il müddətinə azadlıqdan məhrum edilib. 2006-cı ildə isə o, kokain, marixuana, alkoqol və depressantların təsiri altında avtomobil idarə etdiyinə görə Amerikanın Skottsdeyl (Arizona) şəhərinin polisi tərəfindən həbs olunaraq dörd il həbs cəzası alıb. Daha sonra Tayson reabilitasiya kursunu keçməyə məcbur edilmişdir. Bundan başqa, 90-cı illərin sonu məşhur amerikalı tennisçi Andre Aqassinin karyerasında da çox çətin dövr olmuşdur. Ağır qol zədəsi və davamlı ağrı hiss etməsi idmançını metamfetamin aludəçisi etmişdir. Lakin Andre yenə də bu asılılığın öhdəsindən gələ bildi. 2007-ci ilin noyabrında beşqat "Böyük Dəbilqə" qalibi və dünyanın keçmiş birinci raketka ustası 27 yaşlı isveçrəli tennisçi Martina Hingisin testində kokain izləri aşkar edildikdə onu ikiillik diskvalifikasiya gözləyirdi. Lakin idmançı ona verilən bütün ittihamları rədd edirdi. O, karyerasını bitirmək qərarına gələrək, testlərin nəticələrinə etiraz etməkdən imtina etmişdir. Bu siyahını daha da uzatmaq olar. Bir şey aydındır ki, narkotikdən istifadə ən mənfi nəticələrə gətirib çıxarır.

Səhiyyə Nazirliyinin Respublika Narkoloji Müalicə Mərkəzinin baş direktoru Orxan Cəfərov bu yaxınlarda verdiyi müsahibəsində (2022) ölkədə narkotiklərdən istifadə edənlərin sayında əvvəlki illərlə müqayisədə artım meyillərin olduğunu bildirərək, ümumilikdə Azərbaycanda narkotikdən istifadə edən qadınların və yeniyetmələrin kişilərə nisbətən daha az olduğunu qeyd etdi [7].

Azərbaycan əhalisi arasında narkomaniyanın yayılması ilə bağlı rəsmi statistik məlumatlar ***cədvəl 2***-də təqdim edilmişdir.

***Cədvəl 2. Azərbaycanda əhalinin narkomaniya ilə xəstələnməsi***

| *Azərbaycanda əhalinin narkomaniya ilə xəstələnməsi* | | | | | |
|---|---|---|---|---|---|
| | **2005** | **2010** | **2015** | **2020** | **2021** |
| **İlk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələr (nəfər)** | | | | | |
| Narkomaniya | 1297 | 2353 | 2017 | 2723 | 5603 |
| Bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozuntuları | - | - | 8 | 568 | 2418 |
| *Əhalinin hər 100.000 nəfərinə* | | | | | |
| Narkomaniya | 15,5 | 26,3 | 21,2 | 27,3 | 55,9 |
| Bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozuntuları | - | - | 0,1 | 5,7 | 24,1 |
| **Tibb müəssisələrində qeydiyyatda olan xəstələr (nəfər)** | | | | | |
| Narkomaniya | 17720 | 24875 | 28555 | 33788 | 34602 |
| Bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozuntuları | - | - | 20 | 785 | 3107 |
| *Əhalinin hər 100.000 nəfərinə* | | | | | |
| Narkomaniya | 210,1 | 276,7 | 297,9 | 337,9 | 344,8 |
| Bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozuntuları | - | - | 0,2 | 7,9 | 31,0 |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [11]***

Rəsmi statistika məlumatları ölkədə narkomaniyanın artdığını göstərir, lakin təəssüflə qeyd etməliyik ki, ölkədə narkotik istifadəçilərinin real sayı rəsmi qeydiyyatda olandan xeyli çoxdur. Bunu Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətovun bu yaxınlarda verdiyi müsahibə də (2022) təsdiqləyir [8]. O, məlumat vermişdir ki, 2021-ci ildə Azərbaycanda qeydiyyatda olan narkotik istifadəçilərinin sayının 34602 nəfər olmasına baxmayaraq, narkotik istifadəçilərinin real sayı bundan xeyli çoxdur. Daxili İşlər Nazirliyi tərəfindən son 2,5 ildə həyata keçirilən tədbirlər nəticəsində Respublika ərazisində narkotiklərlə əlaqəli 19 mindən çox cinayət faktı açılıb. 7 tondan artıq narkotik və psixotrop maddə dövriyyədən çıxarılıb.

"Dopinq" sözünün özü XIX əsrdə yaranmışdır, ingilis dilində "to dope" narkotik təklif etmək feilindən irəli gəlir. Əslində ilk ciddi doping ötən əsrin 20-ci illərinə qədər istifadəsi qadağan olunmayan (həm idmançılar, həm də idmanla məşğul olmayanlar üçün) narkotik vasitələr – kokain və heroin idi. Belə ki, dopinqə qadağa qoyulması üçün ilk cəhd 1928-ci ilə təsadüf edir. Məhz o zaman Amsterdamda keçirilən Beynəlxalq Yüngül Atletika Federasiyasının (IAAF) Konqresində bu təşkilatın Nizamnaməsinə idman tarixində ilk dəfə olaraq antidopinq qaydası daxil edildi. Bu qaydaya əsasən, idman göstəricilərini yaxşılaşdıran stimullaşdırıcıların istifadəsi və ya idmançılara bu işdə yardım həm peşəkar, həm də həvəskar idmandan xaricedilmə təhlükəsi yaradır. Bununla belə, heç kim yeni qaydaya fikir vermədi: "natəmiz" idmançıları tutmaq üçün üsullar və vasitələr çox sonra ortaya çıxdı [9]. 10 noyabr 1999-cu ildə Ümumdünya Antidopinq Agentliyi (WADA) yaradıldı. Bu, müxtəlif idman təşkilatlarının, o cümlədən ilkin dövrlərdə Ümumdünya Antidopinq Agentliyi tərəfindən tam maliyyələşdirilən Beynəlxalq Olimpiya Komitəsinin (BOK) və bəzi ölkələrin hökumətlərinin təşəbbüsü ilə baş verdi. Ümumdünya Antidopinq Agentliyinin devizi – "Play Fair"dir (Düzgün Oyna), antidopinq xidmətlərinin işini tənzimləyən əsas sənəd isə Ümumdünya Antidopinq Məcəlləsidir. AMADA və Ümumdünya Antidopinq Agentliyi həm dünyada, həm də Azərbaycanda idmanda qadağan olunan vasitələrdən istifadənin qarşısının alınması və təmiz idmanın təbliği ilə bağlı mübarizədə sıx əməkdaşlıq edirlər. Azərbaycanda idmanda narkotik vasitələrin istifadəsi sahəsində mövcud vəziyyətin təhlilini və monitorinqini aparmaq məqsədi ilə AMADA 2021-ci ildə idmançılar arasında sosioloji sorğu keçirib.

***"İdmançıların asılılıq yaradan maddələrə münasibətinə dair"*** sorğunun əsas məqsədi Ümumdünya Antidopinq Agentliyinin yeni qəbul etdiyi və 2021-ci il 1 yanvar tarixindən qüvvədə olan Ümumdünya Antidopinq Məcəlləsinin və 2021-ci il Qadağan Edilmiş Siyahısının müddəaları çərçivəsində idmançılar arasında narkotik və asılılıq yaradan maddələrin istifadəsinin yayılma miqyasını müəyyən edərək, bununla mübarizə aparılması məqsədi ilə idman subyektləri üçün yeni çağırışlara cavab verən maarifləndirmə tədbirlərinin istiqamətinin müəyyən edilməsidir. Layihə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 dekabr tarixli, 2360 nömrəli Sərəncamında göstərilən sahələr üzrə fəaliyyətin həyata keçirilməsi məqsədini daşıyır. Belə ki, Sərəncamda əks etdirilən vəzifələrin yerinə yetirilməsi Azərbaycan Milli Antidopinq Agentliyinə tapşırılmışdır.

Sorğunun effektivliyini və təkmilliyini təmin etmək məqsədi ilə pilot layihə həyata keçirilmiş və sorğunun ilkin versiyası Ağır atletika, Atletika, Velosiped idmanı, Gimnastika və Atıcılıq federasiyalarının hər birindən 10 nəfər olmaqla, 50 idmançı arasında aparılmışdır. Sorğu 49 nəfər tərəfindən cavablandırılaraq müvəffəqiyyətlə keçirilmiş və iştirakçıların özləri tərəfindən doldurulan sorğu anketlərindən istifadə edilmişdir. Sorğu 22 iyun 2021-ci il tarixindən etibarən 31 oktyabr 2021-ci il tarixinədək "Alchemer" platformasında yerləşdirilərək onlayn formada keçirilmişdir. Sorğuda iştirakçı aktivliyini təmin etmək üçün bu barədə məlumat AMADA-nın so-

sial şəbəkədəki hesablarında mütəmadi təbliğ edilmişdir. Sorğu nəticəsində əldə olunan məlumatın hərtərəfli olması və fərqli idman növlərini təmsil edən idmançıları cəlb etmək üçün AMADA öz növbəsində sorğu ilə bağlı məlumatı və müvafiq linki aşağıda qeyd olunan federasiyalara təqdim etmişdir:

1. *Azərbaycan Pauerliftinq Federasiyası*
2. *Azərbaycan Atıcılıq Federasiyası*
3. *Azərbaycan Atletika Federasiyası*
4. *Azərbaycan Milli Avarçəkmə Federasiyası*
5. *Azərbaycan Basketbol Federasiyası*
6. *Azərbaycan Boks Federasiyası*
7. *Azərbaycan Cüdo Federasiyası*
8. *Azərbaycan Futbol Federasiyaları Assosiasiyası*
9. *Azərbaycan Gimnastika Federasiyası*
10. *Azərbaycan Güləş Federasiyası*
11. *Azərbaycan Həndbol Federasiyası*
12. *Azərbaycan Kamandan Oxatma Federasiyası*
13. *Azərbaycan Milli Karate Federasiyası*
14. *Azərbaycan Milli Paralimpiya Komitəsi*
15. *Azərbaycan Sambo Federasiyası*
16. *Azərbaycan Badminton Federasiyası*
17. *Azərbaycan Stolüstü Tennis Federasiyası*
18. *Azərbaycan Taekvondo Federasiyası*
19. *Azərbaycan Voleybol Federasiyası*
20. *Azərbaycan Qılıncoynatma Federasiyası*
21. *Azərbaycan Triatlon Federasiyası*
22. *Azərbaycan Üzgüçülük Federasiyası*
23. *Azərbaycan Velosiped İdmanı Federasiyası*
24. *Azərbaycan Şahmat Federasiyası*

Sorğuda 608 respondent yuxarıda qeyd olunmuş zaman kəsimində iştirak etmişdir. Ümumilikdə narkotikdən istifadənin nə dərəcədə geniş yayılması və ciddi problem olması ilə bağlı suala iştirakçıların 56 faizi "geniş yayılıb və ciddi problemdir" – deyib. 37 faizi "yayıldığını və ciddi problem olduğunu", 7 faizi isə "geniş yayılmadığını və ciddi problem olmadığını" bildirib. Məhz idmançılar arasında narkotikdən istifadə nə dərəcədə geniş yayılmış və ciddi problem olması ilə bağlı suala isə cavab olaraq 13 faizi hesab edir ki, "geniş yayılıb, ciddi problemdir", 23 faizi hesab edir ki, "yayılıb, ciddi problemdir", 29 faizi hesab edir ki, "istifadə edənlərin sayı artır", 35 faizi isə hesab edir ki, "geniş yayılmayıb və ciddi problem deyil". İştirakçılar idmançıların narkotik vasitədən istifadə etməsinin əsas səbəbləri kimi həzz almaq, stress atmaq, ağrıları azaltmaq olduğunu qeyd ediblər. Bundan əlavə, "Yarışdan kənar müddətdə idmançılar tərəfindən narkotiklərin istifadəsi qadağan olunmalıdırmı?" sualına iştirakçıların 74 faizi "bəli, qadağan olunmalıdır", 4 faizi "xeyr, idman göstəricilərinə təsiri yoxdur", 6 faizi "yalnız yarış zamanı qadağan edilməlidir", 16 faizi isə "bilmirəm" cavabını verib.

Ümumilikdə sorğunun cavablarını təhlil etsək, bir sıra nəticələrə gəlmək olar:

• ***Güclü ağrıkəsici və ya sakitləşdirici dərmanları idmançılar həkim məsləhəti əsasında qəbul edirlər. Belə olduğu halda, AMADA yalnız idmançılar üçün deyil, federasiya və klub həkimləri üçün də asılılıq yaradan maddələr üzrə təlim silsilələrinin keçirilməsini də nəzərdə saxlamalıdır.***

• ***Terapevtik məqsədlər üçün istifadə olunan dərmanların sonradan da istifadəsinə davam etmək istəyinin olması kişilər arasında yüksək olduğundan gender faktorunun asılılıq yaradan maddələrin istifadəsinə təsiri və onların qarşılıqlı əlaqəsi gələcəkdə tədqiqat obyektinə çevrilməlidir və bu sahədə AMADA tərəfindən daha dərin sosioloji tədqiqatlar aparılmasına ehtiyac vardır.***

Narkotiklərin bədənə mənfi təsiri, habelə antidopinq sanksiyaları və karyera üçün mənfi nəticələri üzrə gücləndirilmiş oflayn və onlayn təlimlərin keçirilməsi önəm kəsb edir. Üstəlik, təlimlərə məsul dövlət qurumlarının nümayəndələrinin cəlb edilməsi də təlimlərin səmərəliliyini artıran faktor ola bilər. Bu sahədə AMADA Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti ilə əməkdaşlıq edir. Araşdırmalarımız nəticəsində ümumilikdə, 14 fakt üzrə materiallar hüquq mühafizə orqanlarına göndərilmişdir.

Narkotiklərlə mübarizə sahəsində qarşıda duran vəzifələri və öhdəlikləri yerinə yetirmək üçün 17 iyul 2021-ci il tarixində AMADA və Dövlət Gömrük Komitəsi arasında əməkdaşlıq görüşü baş tutmuşdur. 17 dekabr 2021-ci il və 23 sentyabr 2022-ci il tarixlərində Ümumdünya

Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Dopinq vasitələrinin Azərbaycan Respublikası Gömrük Sərhədindən qanunsuz keçirilməsi hallarının qarşısının alınması” mövzusunda təlim keçirilib. 2022-ci ildə isə AMADA ilə Daxili İşlər Nazirliyi arasında steroidlərin və narkotik vasitələrin ölkə daxilinə qanunsuz keçirilməsi hallarının qarşısının alınması məqsədi ilə, eləcə də AMADA, Səhiyyə Nazirliyi və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) arasında ölkədə idman qidaları, bioloji fəallığa malik qida əlavələrinin dövriyyəsi və istifadəsi ilə bağlı nəzarət mexanizmlərinin gücləndirilməsinə həsr edilmiş görüş keçirilmişdir.

Bu istiqamətdə beynəlxalq qurumlarla əlaqələr qurulmuş və Ümumdünya Antidopinq Agentliyi ilə sıx əməkdaşlıq davam etdirilmişdir. Xüsusilə də narkotiklərin mənfi nəticələri barədə təlim materialları hazırlanarkən Ümumdünya Antidopinq Agentliyinin təcrübəsi yaxından öyrənilmiş və tətbiq edilmişdir. Əlavə olaraq AMADA və Avstraliyanın dopinqlə və idman yarışlarında manipulyasiya ilə mübarizəyə cavabdeh qurumu olan Sport Integrity Australia (SIA) arasında 2021-2023-cü illəri əhatə edən əməkdaşlıq haqqında üçillik saziş imzalanıb. Sənəd iki qurum arasında, əsasən də 3 istiqamətdə əməkdaşlığı nəzərdə tutur. Bunlar təhsil, təhqiqat və idmançılar üçün ödənişsiz hüquqi yardım sahələridir.

AMADA tərəfindən 2022-ci ilin 1-ci yarımili ərzində narkotiklə mübarizəyə həsr olunmuş ümumilikdə 1 vebinar, 20 seminar, 8 təbliğat və 2 maarifləndirmə tədbiri keçirilmişdir. Vebinar 1 mart 2022-ci ildə Avarçəkmə Federasiyasının 40 idmançısı üçün nəzərdə tutulmuşdur. Seminarların 13-ü aşağıda qeyd olunan idman federasiyaları və idman idarəsində təşkil edilmişdir: Azərbaycan Velosiped İdmanı Federasiyası, Azərbaycan Kikboksinq Federasiyası, Azərbaycan Milli Paralimpiya Komitəsi, Azərbaycan Boks Federasiyası, INBA Qlobal Azərbaycan, Azərbaycan Cüdo Federasiyası, Azərbaycan Güləş Federasiyası, Sabunçu Gənclər və İdman İdarəsi. Seminarlarda 241 idmançı, 2 məşqçi və 2 hakim iştirak etmişdir. Bunlardan başqa, qurum 13 may 2022-ci ildə 8 nömrəli İxtisaslaş-dırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin (İOEUGİM) 20 şagirdi üçün seminarlar da təşkil etmişdir. Yuxarıda qeyd olunan vebinar və seminarlarla yanaşı, AMADA 8 təbliğat tədbiri təşkil etmişdir. Təqribən 1000 nəfərin iştirak etdiyi təbliğat tədbirləri aşağıdakı yarışlar zamanı təşkil olunmuşdur: Akrobatika gimnastikası üzrə 12-ci Dünya Yaş Qrupları Yarışları, Akrobatika gimnastikası üzrə 28-ci Dünya Çempionatı, Ağır atletika üzrə Azərbaycan Çempionatı, Kikboksinq üzrə 26-cı Azərbaycan Çempionatı, Atıcılıq üzrə Dünya Kuboku, Üzgüçülük üzrə Azərbaycan Açıq Yay Çempionatı, “Qələbə” idman festivalı.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və AMADA-nın birgə təşkilatçılığı ilə idman federasiyalarının 60 nəfər məşqçi və tibbi personalı üçün antidopinq maarifləndirmə tədbirləri də keçirilmişdir. Tədbirlər çərçivəsində idmançılarla təmiz idman dəyərləri, dopinqin, narkotik və psixotrop maddələrin qadağan edilməsi, idmanda ədalət prinsipi və antidopinq nəzarətinin əhəmiyyəti ilə bağlı maarifləndirmə işləri aparılıb.

Antinarkotik təbliğatı sosial mediada da diqqət mərkəzində saxlanılır. Belə ki, AMADA-nın İnstagram, Facebook, Youtube və Twitter sosial şəbəkə hesablarında narkotiklə mübarizəyə aid paylaşımlar edilir. Bundan əlavə, idmanda narkotik vasitələr və asılılıq yaradan maddələrin fəsadlarından bəhs edən üç videoçarx hazırlanıb. Antinarkotik təbliğatı çərçivəsində 13 yanvar 2022-ci ildə AMADA-nın sosial media kanallarında **“Təmiz idman və sağlam cəmiyyət üçün narkotiklərə yox deyək!”** başlığı altında video paylaşılıb. Bu videoda narkotiklərin cəmiyyətdə, xüsusilə də idman aləmində səbəb olduğu fəsadlardan danışılır.

22 fevral 2022-ci ildə sosial media kanallarında yayımlanan “Susma” videosu AMADA-nın vebsaytında idmanda dopinq istifadəsi halları haqqında anonim məlumat vermək üçün nəzərdə tutulan **“Susma”** layihəsi haqqındadır. 26 iyun 2022-ci ildə AMADA-nın Azərbaycan Kardiologiya Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində metamfetamin maddəsinin insan orqanizmində səbəb olduğu fizioloji və psixoloji fəsadlar barədə maarifləndirici videoçarx hazırlanaraq 26 iyun – Narkotik vasitələrin sui-istifadəsi və qa-

nunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə günündə bütün sosial şəbəkələrdə geniş paylaşılmışdır [10].

Antidopinq və antinarkotik maarifləndimə proqramı çərçivəsində AMADA və Elm və Təhsil Nazirliyi arasında da effektiv əməkdaşlıq mövcuddur. Belə ki, sözügedən nazirliyin tabeliyində olan idman məktəblərini əhatə edən silsilə antidopinq və antinarkotik seminarlar keçirilib. 2022-ci ildə Gəncə, Yevlax, Göygöl, Şəmkir, Tovuz, Lənkəran, Astara, Masallı, Cəlilabad, Yardımlı və Lerik rayonlarında 1500 nəfərdən artıq idmançı və onların köməkçi heyətinin iştirakı ilə seminarlar təşkil edilmişdir.

**Nəticə.** Sonda qeyd edək ki, AMADA tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının istifadəsinin asılılığı olan şəxslər arasında yayılmasının səviyyəsini və buna münasibətin təhlili üzrə" daha dərin bir sorğu aparılıb (2022) və hazırda nəticələrin təhlilinə start verilib.

Narkomaniya bir sıra müasir qlobal sosial problemlər arasında ən zərərli vərdişlərdən biridir. Narkotiklərin yayılması sabit artım meyilləri göstərir, onun mənfi nəticələri isə həm narkomanların özləri, həm də bütün cəmiyyət üçün çox ağırdır. Bütün dünyada olduğu kimi, ölkəmizdə də bu problem ümummilli xarakter daşıyır və müxtəlif tədbirləri əhatə edən kompleks əks tədbirlərin təşkilini tələb edir. Gənclər arasında narkomaniyanın qarşısının alınmasının mümkün uğurlu vasitələrindən biri də insanların marağını narkomaniyadan yayındırmağa yönəldilmiş müxtəlif proqramlardır. Araşdırmalar göstərir ki, bu pis vərdişdən xilas olmaq üçün idman bir təsirli mübarizə üsulu kimi çıxış edə bilər. Mütəmadi olaraq AMADA sosioloji sorğuların köməyi ilə idmanda qanunla qadağan edilmiş vasitələrin istifadəsinə qarşı mübarizə sahəsində vəziyyətin inkişafına nəzarət məqsədi ilə monitorinq keçirir və bu işi daimi olaraq davam etdirir. Beləliklə, narkomaniyanın qarşısının alınması, profilaktikası üçün əsas qüvvə və vəsaitlərdən biri narkotik əleyhinə təbliğat tədbirləridir ki, fəaliyyət göstərdiyi illər ərzində AMADA bilavasitə narkomaniyaya qarşı mübarizəyə və Azərbaycanda təmiz idmanın inkişafına yönəlmiş silsilə tədbirlər keçirmişdir.

## ƏDƏBİYYAT

1. Sport: using sport for drug abuse prevention / United Nations Office for Drugs Control and Crime Prevention, Global Youth Network. New York, United Nations, 2002.
https://www.unodc.org/pdf/youthnet/handbook_sport_english.pdf

2. President.az. (2016). "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli, 447-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
https://president.az/az/articles/view/22056

3. Anadolu Agency (2022). ООН: Число наркозависимых в мире в 2020 году составило 284 млн. ООН: Число наркозависимых в мире в 2020 году составило 284 млн.

4. Иванова Е.В., Соколова Т.П. Наркотики и допинг: понятия и регламентация. Nomothetика: Философия. Социология. Право, (2016).
https://cyberleninka.ru/article/n/narkotiki-i-doping-ponyatiya-i-reglamentatsiya

5. President.az. (2019). Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı.
https://president.az/az/articles/view/33882

6. Газета. Ру (2013). Опиум былых побед.
https://www.gazeta.ru/sport/2013/12/01/a_5778149.shtml

7. Media.az (2022). В Азербайджане выросло число наркоманов. Важное интервью с Гендиректором наркологического центра.
https://media.az/society/1067848589/v-azerbaydzhane-vyroslo-chislo-narkomanov-vazhnoe-intervyu-s-gendirektor-narkologicheskogo-centra/

8. Report.az (2022). МВД: В Азербайджане реальное число наркоманов намного больше.
https://report.az/ru/proisshestviya/mvd-v-azerbajdzhane-realnoe-chislo-narkomanov-namnogo-bolshe/

9. ТАСС. Медали из пробирки: кто побеждает в борьбе с допингом.
https://tass.ru/spec/doping-v-sporte

10. AMADA (2022). 26 iyun - Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə

Beynəlxalq Mübarizə Günüdür.
https://www.youtube.com/watch?v=5iBcJxCoL7w
11. Azərbaycanda səhiyyə, sosial müdafiə və mənzil Şəraiti. Statistik məcmuə, Rəsmi nəşr, Bakı, 2022.
https://stat.gov.az/menu/6/statistical_yearbooks/source/healthcare_2022.zip

**Sh.Huseynli, R.Afandiyev**

**The role of Azerbaijan National Anti-Doping Agency in combating substance abuse in sports**

**Abstract**

The article is devoted to the study of the role and activities of the Azerbaijan National Anti-Doping Agency (AMADA) in the fight against the use of narcotics in sports in Azerbaijan. Revealing the main activities of AMADA in the fight against this problem, the authors point out the effectiveness of preventive measures. One of the effective preventive measures in the fight against drug addiction is sports. It is a physically active lifestyle that can bring significant health benefits. Therefore, it is necessary to form a stable opinion in society that clean sport without prohibited substances and drugs is relevant, prestigious and exciting.

**Ш.Гусейнли, Р.Эфендиев**

**Роль Национального Агентства Антидопинга Азербайджана в борьбе с употреблением наркотиков в сфере спорта**

**Аннотация**

Статья посвящена изучению роли и деятельности Национального Антидопингового Агентства Азербайджана (AMADA) в борьбе с использованием наркотических средств в сфере спорта в Азербайджане. Раскрывая основные направления деятельности AMADA в борьбе с данной проблемой, авторы отмечают эффективность превентивных и профилактических мер. Одной из эффективных профилактических мер в борьбе с наркоманией является спорт. Именно физически активный образ жизни может принести значительную пользу здоровью. Поэтому необходимо сформировать в обществе устойчивое мнение о том, что чистый спорт без запрещенных веществ и наркотиков – актуален, престижен и интересен.